AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 12.12.2016 |
| Qeydiyyat nömrəsi | Q-22 |
| Adı | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 24 dekabr 2012-ci il tarixli Q-12 nömrəli qərarı ilə təsdiq edilmiş "Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun illik maliyyə hesabatlarını tərtib edən təşkilatlarda əsas fondlara və qeyri-maddi aktivlərə tətbiq edilən amortizasiya normaları barədə Təlimat"da dəyişikliklər edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 17.12.2016 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 090.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201612120022 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 16.12.2016 |

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2005-ci il tarixli 192 nömrəli Fərmanının 2.1-ci bəndini və Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2009-cu il tarixli 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"nin 7.7-ci, 7.11-ci, 8.48-ci və 8.53-cü bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 24 dekabr 2012-ci il tarixli Q-12 nömrəli qərarı ilə təsdiq edilmiş "Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun illik maliyyə hesabatlarını tərtib edən təşkilatlarda əsas fondlara və qeyri-maddi aktivlərə tətbiq edilən amortizasiya normaları barədə Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 1.3-1-ci bənd əlavə edilsin:

"1.3-1. Təşkilatlarda əsas fondlara və qeyri-maddi aktivlərə tətbiq edilən amortizasiya metodu həmin təşkilatların seçimindən asılı olaraq müəyyən edilir."

1.2. 4.1-ci bənddəki cədvəlin 2.6.6-cı sətri aşağıdakı redaksiyada verilsin:

| | | | | |
|---|---|---|---|---|
| 2.6.6. | Minik avtomobilləri | 231-3-6.6 | 10 | 29 |

1.3. 6.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"Amortizasiyanın azalan qalıq metodu əsasında amortizasiya ayırmalarını hesablayan təşkilatlar tərəfindən ilin sonuna balans dəyəri ilkin dəyərinin 5 faizindən aşağı olan əsas fondlar və qeyri-maddi aktivlər üzrə amortizasiya məbləği həmin aktivlərin balans dəyəri həcmində müəyyən edilir.".

1.4. aşağıdakı məzmunda 6.9-cu bənd əlavə edilsin:

"6.9. İstifadə edilmiş əsas fondları və qeyri-maddi aktivləri alan təşkilat tərəfindən amortizasiya normaları bu aktivlər üzrə qalan faydalı istifadə müddətinə və balans dəyərinə uyğun olaraq müəyyən edilir.".

2. Uçot siyasəti şöbəsinə tapşırılsın ki, bu qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

3. Bu qərarın icrasına nəzarət nazir müavini Emin Hüseynova həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikasının**
**maliyyə naziri** **Samir Şərifov**